**"2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır. Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq. Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misli görünməmiş bir yenidənqurma modelidir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə çıxışı zamanı deyib.**

# Qarabağın və Şərqi Zəngəzurun quruculuq modeli

Hazırda Azərbaycan işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda regenerasiya və reinteqrasiya dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə postkonflikt quruculuğunun əsas istiqamətləri müəyyənləşdirilib. İşğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür. Ərazi çox böyükdür və Qarabağın bərpası dünyada analoqu olmayan, böyük bir meqa layihədir. Sahəsi haradasa Livan qədər olan azad olunan ərazilərdə işlərin hamısı ümumi olaraq əlaqələndirilir. Azərbaycan 10 min kvadratkilometr ərazidə yeni həyat qurur. Bütün bu işlərin həcmi bir daha xalq-iqtidar birliyinin sarsılmazlığını və gücünü göstərir. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Böyük Qayıdış proqramının icrası uğurla davam edir. Böyük Qayıdış proqramına uyğun olaraq artıq növbəti 3 il ərzində Qarabağda və Şərqi Zəngəzurda 40 min ailənin məskunlaşması nəzərdə tutulub. Ekspertlər bildirirlər ki, bununla da 2026-cı ilədək təxminən 160 min vətəndaşımız öz ata-baba yurdlarına qayıda biləcək. Yaşayış məntəqələrinin müasir standartlara uyğun olaraq qurulması, həm infrastrukturun yenilənməsi ondan xəbər verir ki, məcburi köçkünlərimiz gözlənildiyindən daha tez öz ata-baba yurdlarına qayıtmaq imkanı qazanacaqlar. Qarabağda və Şərqi Zəngəzurda tətbiq edilən model digər bölgələrimiz üçün nümunə rolunu oynayacaq və burada ağıllı kənd və şəhər prinsipinə uyğun olaraq idarəetmə formalaşacaq. Postkonflikt dövründə Azərbaycanın quruculuq konsepsiyası nümunəvi model kimi beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. XXI əsrin müharibəsini aparmış Azərbaycanın hərb modelinin dünya miqyasında xüsusi tədqiq olunduğu kimi, postkonflikt dövründə quruculuq təcrübəsinin də geniş öyrəniləcəyinə şübhə yoxdur.





Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur sıfırdan qurulur. İşğalçı Ermənistanın yerlə-yeksan etdiyi, xarabalığa çevirdiyi, yer üzündən sildiyi şəhərlər, kəndlər, qəsəbələr yenidən tikilir. Ancaq mina problemi insan həyatı üçün təhlükə olaraq qalır. Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. Minalarla kütləvi şəkildə çirklənmə bu ərazilərdə geniş bərpa və yenidənqurma planlarının həyata keçirilməsinə ciddi maneələr yarada bilmir. Azad edilmiş ərazilərdə ən müasir infrastruktur yaradılır, elektrik stansiyaları inşa edilir. Yüz kilometrlərlə yollar, su, işıq, qaz və digər kommunikasiya xətləri çəkilir. Yaşayış məntəqələri müasir konsepsiyalar əsasında qurulur, modern beynəlxalq hava limanları inşa edilir, dini-mədəni abidələrin yenidən bərpası da eyni templə aparılır və xalqımızın milli-mənəvi dəyərlərinə sahib çıxılır. Yeni tərəfdaşlıq əlaqələri formalaşdırılır. Bütün bunlar Azərbaycanın həm sosial-iqtisadi inkişafına, həm də regionda mövqelərinin möhkəmlənməsinə xidmət edir. Bu proses hazırda da geniş miqyas alır. Bütün bunlar əlbəttə ki, böyük siyasi iradə, qətiyyət və iqtisadi güc tələb edir.

Azərbaycan dünya təcrübəsi də nəzərə alınmaqla, işğaldan azad olunmuş ərazilərin bərpası prosesində qarşıya çıxan məsələləri müəyyən ardıcıllıqla, sistemli şəkildə həll edir. Birinci mərhələdə idarəetmə və təhlükəsizlik məsələləri - ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsi, dövlət sərhədi üzrə nəzarətin təşkili, dövlət qurumlarının fəaliyyətinin bərpası təmin edilir. İkinci mərhələdə baza infrastrukturunun yaradılması məsələləri - magistral nəqliyyat və mühəndis kommunikasiyalarının, meliorasiya sistemlərinin baş qurğularının tikintisi təmin olunur. Üçüncü mərhələyə sosial məsələlər - yaşayış evləri, təhsil və səhiyyə müəssisələri, mədəni-məişət xidməti obyektlərinin tikilməsi daxildir. Dördüncü mərhələ isə genişmiqyaslı iqtisadi məsələlər - məcburi köçkünlərin repatriasiyası prosesi ilə paralel iş yerlərinin yaradılmasını və iqtisadi fəaliyyət obyektlərinin istifadəyə verilməsini nəzərdə tutur.

İşğaldan azad olunmuş bütün ərazilərin ümumi planının qısa müddət ərzində hazırlanması təmin olunub. Ağdam və bir çox digər şəhər və kəndlərin Baş planlarının hazırlanması artıq başa çatdırılıb, yüzlərlə yaşayış məntəqələrinin layihələndirilməsi isə davam etdirilir. Baş planların hazırlanması zamanı müasir "ağıllı şəhər" yanaşmaları, "yaşıl enerji" və təmiz ətraf mühit, sənaye və kənd təsərrüfatının kompleks inkişafı, turizm potensialının geniş reallaşdırılması və digər bu kimi məsələlər prioritet götürülüb. Azərbaycanın uzunmüddətli inklüziv inkişaf modelinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə müasir istehsal infrastrukturunun yaradılması, müasir texnologiyaların tətbiqinə yönəlmiş investisiyaların cəlb edilməsi, bölgənin potensialının effektiv reallaşdırılması əsas hədəfdir. İşğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parklarında bu məsələlərə xüsusi diqqət yetirilir.

Qarabağda və Şərqi Zəngəzurda yenidənqurma layihələrinin ölkəmiz üçün ən prioritet sahələrdən biri olduğunu, Şərq-Qərb nəqliyyat dəhlizinin, rəqəmsal transformasiya və bərpaolunan enerji sahələrinin də ölkəmizin iqtisadi inkişafında mühüm yer tutduğunu bildirən Prezident İlham Əliyev qeyd edib ki, bütün bunlarla bağlı həyata keçirdiyimiz layihələrə xeyli sayda tərəfdaş və investor cəlb edilib və ediləcək. Belə ki, Azərbaycanın uğurlu coğrafi mövqedə yerləşməsi və yaradılan əlverişli biznes mühiti, zəngin iqtisadi potensialımız gələcək əməkdaşlıq və inkişaf prosesləri üçün yaxşı zəmin yaradır. Yenidənqurma prosesində Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Bu günə qədər Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard ABŞ dollarından çoxdur. Türkdilli xalqları təmsil edən dövlətlər işğaldan azad edilmiş Qarabağda bərpa-quruculuq işlərində Azərbaycana dəstək verirlər. Füzuli rayonunda Özbəkistan tərəfindən məktəb tikilir, Qazaxıstan tərəfindən isə yaradıcılıq mərkəzi inşa olunur. Əməkdaşlıq əlaqələri daha da şaxələnir. Ötən dövr ərzində Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğız İnkişaf Fondu yaradılmışdır. Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş və çoxşaxəli əməkdaşlıq imkanlarının formalaşdırılması deməkdir. Bir sözlə, postkonflikt dövründə Azərbaycanın quruculuq modeli və məqsədyönlü siyasəti regionu işbirliyi və inteqrasiya məkanına çevirir.

Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı və sürətli tikinti-quruculuq işləri Azərbaycan dövlətinin gücünün və potensialının göstəricisidir. Qalib ölkəmiz öz ərazilərini işğaldan azad etdiyi kimi, həmin əraziləri yenidən quraraq dünyanın ən gözəl guşələrindən birinə çevirməyi də qarşısına məqsəd qoyub və bu istiqamətdə inamla irəliləyir. Dünyada baş verən iqtisadi geriləmələr fonunda Azərbaycanda heç bir layihə təxirə salınmır, nəzərdə tutulan bütün planlar icra olunur. Tikinti-quruculuq işləri, infrastruktur layihələri təkcə Qarabağda deyil, paralel olaraq bütün ölkə boyu həyata keçirilir. Azərbaycanı fərqləndirən, dünyada önə çıxaran da bu amillərdir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2023.- 29 mart.- S.5.